**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏHALİ İSTEHLAKININ TƏDQİQİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

İxtisas: 5308.01 – “Ümumi iqtisadiyyat”
Elm sahəsi: 53 - İqtisad elmləri
İddiaçı: **Vüsalə Səfər qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Şəfa Tofiq qızı Quliyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Pərviz Səməd oğlu Həsənov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Habil Hüseyn oğlu Aslanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

**Dissertasiya şurasının elmi katibi:** iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Əhalinin həyat səviyyəsinin yüksəldilməsi sosial-iqtisadi inkişaf strategiyasına əsaslanan bazar iqtisadiyyatı problemlərinin həlli, islahatların səmərəli təşkili, potensialın istifadə yollarının əsaslandırılması və məqsədli proqram əsasında əhali istehlakı ilə bağlı idarəetmə strukturunun təkmilləşməsi ilə bağlıdır. Müasir dövrdə bu problemlərin həlli hər bir ölkənin iqtisadiyyatının nail olunmuş səviyyəsini, insanların formalaşmış tələbat meyllərini və strukturunu, müasirləşən həyat tərzinin spesifik xüsusiyyətlərini özündə əks etdirir. Ona görə də hər bir ölkədə həyat səviyyəsinin yüksəldilməsi məqsədi ilə əhalinin tələbat sistemi, onun ödənilməsi üsulları, həmçinin iqtisadiyyatda baş verən struktur dəyişmələrin sosial statusu və əhəmiyyətini yüksəltmək prioritetləri əsaslandırılır, seçilib reallaşdırılır.

Əhalinin ərzaq istehlakı probleminin tədqiqi müxtəlif aspektlər və müəyyən məhdudiyyətlər səbəbindən yanaşaraq özünəməxsus yanaşma metodikası və tədqiqat üsulları kəsb edir. Belə ki, həyat səviyyəsinin əsas göstəricilərindən olan istehlak həcmi mülkiyyət və bölgü formasından asılı olmayaraq, dinamika və iqtisadi artım meyarı kimi istehlak olunmuş məcmu əmtəə və xidmət istehlakı həcmi ilə ölçülür. İstehlakın müəyyən hədəf və göstəricilər baximindan tənzimlənməsi, onun istehlakçı rifahi üçün daha səmərəli meyar olaraq qəbul edilməsi, onun ictimai təkrar istehsal sisteminin mühüm elementi kimi çıxış etməsi, onun marketinq və həmçinin bazarın təşkili və idarə edilməsində tələb və təklif strukturu sistemində mühüm rolu bu problemin tədqiqi üçün hər vaxt vacib nəzəri və praktki əhəmiyyət kəsb etmişdir.

Müasir dövrdə ərzaq istehlakı strukturunda əhalinin sosial-demoqrafik tərkibinin dəyişilməsinin nəzərə alınması, məşğulluq və həmçinin həyat keyfiyyəti, sağlamlıq və perspektiv mütərəqqi tələbat sisteminin təsirinin qiymətləndirilməsi, kompleks araşdırma obyekti və predmeti olaraq həmişə tədqiqat üçün aktual olaraq, bazar iqtisadiyyatı şəraitində özünəməxsus yeniliklər kəsb edir. Ona görə də əhalinin istehlakı sisteminin təsviri, onun formalaşması və dinamikasına kompleks amillər sistemi kimi baxılması, müasir şəraitdə yeni müvafiq metodlar və göstəricilər sisteminin tədqiqinə

xüsusi zərurəti yaradır. Əhalinin ərzaq istehlakının ölkənin iqtisadi sistemində rolunun sosial-iqtisadi mahiyyəti və əhəmiyyəti, onun nəzəri və praktiki, daha çox praqmatik olmasını və tənzimləyici rolunu qiymətləndirməklə həlli vacibliyini artırır.

Hazırda ölkəmizdə Azərbaycan Respublikasının Prezidentinin 2016-cı ildə qəbul etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" , 2021-ci ildə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Mili Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində hökümət tərəfindən müvafiq işlər görülür. Lakin bununla belə, istehlak bazarının tənzimlənməsi, xüsusilə əhalinin ərzaq istehlakının təmin edilməsi ilə bağlı həlli vacib bir sıra məsələlər hələ də aktual olaraq qalmaqdadır.

Əhali istehlakının həyat səviyyəsi və iqtisadi artım baxımından rolu ölkəmizin alimləri A.Əliyev, Ə.Əlirzayev, A.Qasımov, Ş.Muradov, M.Meybullayev və digərləri tərəfindən nəzəri-metodoloji mühüm tədqiqatlar aparılmışdır. Həyat səviyyəsinin göstəricisi və iqtisadi sahələrin inkişafına stimul yaratmaqla istehlakın əmək, demoqrafiya, idarəetmə aspektləri, sahə və ərazi iqtisadiyyatı, aqrar sahədə istehlak bazarının iqtisadi mexanizmlərinin elementləri haqqında Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, N.C.Qafarov, H.Allahverdiyev, S.Mehbalıyev, A.Nadirov, A.Qasımov, S.Salahov, N.Əhmədov, S.Səfərov, T.Quliyev və digərləri kimi alimlərimiz elmipraktiki xarakterli tədqiqatlar aparmışlar.

Xarici ölkə alimlərdən həyat səviyyəsi, istehlak və həyat tərzi problemləri ilə bir sıra iqtisadi məktəblər formalaşmışdır. Belə ki, qloballaşma və qütbləşmə əlaqəsi son illərdə N.M.Rimaşevskaya, Y.A.Şvyakov, T.F.Mayer, K.Mikulskiy, T.İ.Zaslavskaya, V.Panova, Raysin, Q.Volkova, L.Miqranova və başqaları tərəfindən öyrənilmişdir.

Bununla belə istehlak sferası sosial-iqtisadi proses olmaqla və digər sosial-iqtisadi amillərin və proseslərin səbəb-nəticəsi, çoxaspektli proses və sistemli təhlil obyekti kimi müasir şəraitdə öyrənilməsi daha yeni xüsusiyyətlər kəsb edir. O cümlədən dissertasiya işində istehlakın ölçülməsi, onun bir sıra meyarlar və vahid ölçü üsulları əsasında qiymətləndirilməsi kimi mühüm məsələlər nisbətən az öyrənilmişdir. Ona görə də əhalinin ərzaq istehlakının əsas amilləri onun formalaşma

mənbələri və prinsipləri əsas götürülərək onun sistemli təhlil üsulları daha yeni xüsusiyyətlər kəsb edir və elm tutumludur.

Müasir iqtisadi sistemin əsas meyar və məqsədi kimi əhali istehlakının maksimumlaşdırılması, yeni yanaşma, qiymətləndirmə və perspektiv-proqnozlar tələb edir ki, bu da dissertasiya qarşısında dayanan vəzifələrini müəyyən edir və onun mövzusunun aktuallığını şərtləndirir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Əhali istehlakının kompleks və sistemli təhlili və təkmilləşdirilməsi əsasında sosial rifahın artırılması və iqtisadi inkişafın əhali təlabatına uyğunlaşdırılması tədqiqatın əsas məqsədidir.

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzidələr müəyyən edilmişdir.

- əhali istehlakının çox sahəli, çoxaspektli cəhətlərini araşdırmaqla onun kompleks təhlili metodlarını əsaslandırmaq, ierarxik strukturu ilə iqtisadi sistem arasında əlaqələrin qarşılıqlı təsirini qiymətləndirmək üsullarını dəyərləndirmək;
- əhali istehlakının dəyişmə dinamikasında aparıcı amillərin rolunu qiymətləndirən, iqtisadi artım, bölgü və qiymət mexanizmlərinin dəyişməsi zamanı baş verən struktur modellərin tərtibi və tətbiqinin metodiki aspektlərini göstərmək;
- dünyada əhali istehlakının mövcud vəziyyəti və strukturunun diaqnostikası aparmaq, müxtəlif ölkələr üzrə istehlak bazarının inkişaf vəziyyəti öyrənmək;
- ölkədə əhali istehlakının mövcud vəziyyəti və ona təsir edən sosial-iqtisadi amilləri regional səviyyədə qiymətləndirmək;
- əhali istehlakının idarə olunması zəruriliyini əsaslandırmaqla maraqların uzlaşması baxımından istehlaka təsir edən amillərin hər birinin ayrılıqda və kompleks əlaqədə idarə edilməsi meyar və göstəricilərini dəyişmə meyllərini və onların real iqtisadiyyatla əlaqəsini açıqlamaq;
- əhali istehlakının proqnozlaşdırılmasının əsas konseptual müddəalarını, prinsiplərini və mexanizmlərini əsaslandırmaqla perspektiv proqnoz üçün əsas istiqamətləri seçmək və onların elmi maddi bazasını yaratmaq;
- Azərbaycanda mövcud istehlak bazarının tənzimlənməsinin

xarici müsbət təcrübələr əsasında inkişaf istiqamətlərinin müəyyən etmək və əsaslandırmaq;

- regionlarda yaşayan əhalinin istehlak səviyyəsinin yüksəldilməsi üçün məşğulluq probleminin həlli üsullarının təkmilləşməsi ilə bağlı tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Əhali istehlakının dinamikası və formalaşması xüsusiyyətləri tədqiqatın obyektini təşkil edir. İstehak davranışına təsir edən sosial-iqtisadi amillərin qarşılıqlı əlaqəsi və nəticələrinin təhlili tədqiqatın predmeti kimi qəbul edilmişdir.

**Tədqiqat metodları.** Tədqiqat aparılarkən statistik, qruplaşdırma, ümumiləşdirmə, sistemli yanaşma, müqayisəli təhlil, sintez, riyazi-statistik, balans və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıda qeyd edilmişdir:

- əhali istehlakının formalaşmasını şərtləndirən mühüm amillər və elmi-nəzəri müddəalar;

- ölkə üzrə istehlak səviyyəsinin inkişafı göstəriciləri və regionlarda əhalinin istehlak səviyyəsinin diaqnostikası zamanı aşkarlanmış problemlər;

- əhali istehlakının bazarının tənzimlənməsinin prioritet istiqamətləri;

- istehlak bazarında rəqabət mühitinin və antiinhisar fəaliyyətinin təkmilləşdirilməsi yolları;

- ölkə üzrə istehlak bazarında məşğulluğun artırılmasının əsas istiqamətləri.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilikləri aşağıda sadalanmışdır:

- əhali istehlakının formalaşması və proqnozlaşdırılması metodologiyası sistemli şəkildə öyrənilməsi əsasında, onları şərtləndirən amillər üzrə müxtəlif elmi-nəzəri müddəalar araşdırılmış, yeni yanaşmalar müəyyən edilmişdir;

- ölkədə istehlak bazarı üzrə rəqabət mühitinin təkmilləşdirilməsi, həmçinin məşğulluğun artırılması üçün mühüm prioritet istiqamətlər müəyyənləşdirilmişdir.

- Azərbaycanda əhali istehlakının mövcud vəziyyəti həm makroiqtisadi, həm də mezo (regional) səviyyədə təhlil edilərək

mühüm regional inkişaf problemləri aşkarlanmışdır;

- əhali istehlakının formalaşma və perspektiv dəyişmələrini əks etdirən və xarici amillərin təsirindən istehlak davranışında baş verən kəmiyyət və keyfiyyət dəyişmələrinin proqnozlaşdırılması aparılmışdır;
- ölkədə istehlak bazarının inkişafına şərait yaradan optimal rəqabət mühitinin və antiinhisar siyasəti üzrə düşünülmüş və sistemli tədbirlərin hazırlanması ilə bağlı əsaslandırılmış təkliflər irəli sürülmüşdür;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri respublikada əhali istehlakı davranışını qiymətləndirmək, onun təminat səviyyəsini ölçmək və mövcud real iqtisadiyyatda istehsal, bölgü və bazarın istehlak seqmentləri üzrə təşkili üçün tədbirlərin əsaslandırılmasında elmi baza kimi istifadə oluna bilər. İstehlakın sistem təhlili və proqnozu dövlət siyasətinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi və həmçinin əmək haqqı, pensiya və sosial müdafiə tədbirlərinin istehlaka uyğun tənzimlənməsi strategiyasını hazırlamağa imkan verir. Bununla yanaşı, tədqiqat işində əldə edilmiş nəticələr ölkənin aqrar siyasət prioritetlərində ərzaq təhlükəsizliyi problemlərinin həlli ilə bağlı sistemli tədbirlərin görülməsi üçün əsas araşdırma sənədləri kimi çıxış edə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri 6 məqalədə və üç elmi-praktiki konfransda müzakirə olunmuşdur. Elmi nəticələr tətbiq üçün Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin elmi-tədqiqat mərkəzində istifadə üçün qəbul edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir**.**

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş (13487 işarə), üç fəsil (I fəsil - 79037 işarə, II fəsil - 36747 işarə, III fəsil - 56132 işarə), nəticə və təkliflər (10116 işarə), 97 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində müxtəlif formada 21 cədvəl, 11 sxem və 32 qrafik verilmişdir. İşin ümumi həcmi cədvəllər, qrafiklər, ədəbiyyat siyahısı istisna olmaqla 211098 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Əhali istehlakının tədqiqi və proqnozlaşdırılmasının dünya təcrübəsi" adlı I fəslində** müxtəlif qrup ölkələrdə əhali istehlakının formalaşma xüsusiyyətləri və amilləri, əhali istehlakının formalaşdırılması metodları və dünya praktikasında istehlakın amillərinin idarə olunması prinsipləri ətraflı təhlil edilmişdir.

Bu fəsildə əhali istehlakının tədqiqi və proqnozlaşdırılmasının dünya təcrübəsi araşdırılaraq təhlil olunur. Qeyd edilir ki, ***əhali istehlakı*** sosial-iqtisadi kateqoriya və proses olmaqla, bir sıra iqtisadi, sosial-demoqrafik və siyasi situasiyalardan asılı olduğu üçün onun tədqiqi özünəməxsus xüsusiyyətlərə malikdir.

Sosial-iqtisadi inkişafın son nəticəsi və səmərəli təşkili meyarı olaraq əhali istehlakı təkrar istehsal sisteminin tarazlı və dinamik inkişafının əsas amili qismində formalaşır. Məhz əhali istehlakının maksimumlaşdırılması və onun keyfiyyət dəyişməsinin idarə edilməsi bazar iqtisadiyyatı şəraitində strateji və marketinq tədqiqatlarının aparıcı obyekti olaraq bir sıra sosial-iqtisadi mexanizmlərin kompleks əlaqəsi kimi ifadə olunur. Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən Azərbaycan Respublikasında inkişaf strategiyasının əsas məqsədi olmaqla əhali istehlakının maksimumlaşdırılması, adambaşına düşən istehlak malları və xidmətlərin əhalinin tələbatına uyğun istehsalı və idarə edilməsi müasir şəraitdə aktual və praktiki əhəmiyyət kəsb edən məsələlərdəndir.

Əhali və istehlak bir-biri ilə sıx bağlıdır. Əhali istehlakı sosial-iqtisadi kateqoriya və proses olmaqla, bir sıra iqtisadi, sosial-demoqrafik və siyasi situasiyalardan asılı olduğu üçün onun tədqiqi özünəməxsus xüsusiyyətlərə malikdir. ***Əhali istehlakı*** sosial-iqtisadi inkişafın əsas məqsədi olmaqla istehsal, bölgü və mübadilə proseslərinin nəticəsi kimi formalaşır və idarə olunur. Onun əsas amilləri və sosial-iqtisadi nəticələri sistem halında düz və əks əlaqə ilə bağlı olub, daha çox mövcud inkişaf meylləri və praqmatik tənzimləmə siyasəti ilə bağlıdır.

İstehlakın əsas amilləri kimi istehsal və bölgü münasibətləri, bazarın mövcud vəziyyəti və dövlətin istehlak bazarına təsir imkanları nəzərdə tutulur. Ona görə də istehlak artım və struktur dəyişmələri ilə

xarakterizə olunmaqla, əhalinin sosial-demoqrafik tərkibi və iqtisadi imkanları nəzərə almaqla idarə olunur. Başlıca məqsəd olaraq, istehlakın həcmi və strukturunun maksimumlaşdırılması onun əsas komponentlərinin son faydalılığa təsirini qiymətləndirməklə təşkil olunur. Əgər istehlak amilləri faktiki istehsal, əmtəə və xidmət təklifi, həmçinin alıcılıq qabiliyyəti ilə ifadə olunsa, onda faydalılıq funksiyası aşağıdakı kimi ifadə olunur:

$$U=F(Ts(t), D(t)) \qquad (1)$$

İstehlakın formalaşması və inkişafı hər bir regionun sosial-iqtisadi inkişaf dinamikası və transformasiya modelləri ilə bağlıdır.

İstehlakın kompleks tədqiqi onun formalaşması və dinamikasına təsir edən amillərin aşağıdakı qruplara bölünməsi və onlardan hər birinin istehlaka göstərdiyi təsirin qiymətləndirilməsi ilə ifadə olunur: 1) İstehsal həcmi və istehsal olunmuş əmtəə və xidmətlərin çeşidi və nomenklaturası; 2) İdxal olunmuş məhsul və xidmətlər, onların ölkədaxili tələbatın ödənilməsində rolu; 3) Əhalinin sosial-demoqrafik tərkibi və təkrar istehsal üçün onun ehtiyaclarının quruluşu; 4) Bazarın təşkili və idarə olunması mexanizmlərinin səmərəliliyi

Bu amillər istehlak tələbatının determinantları rolunu oynayır. Sxematik olaraq bu amilləri aşağıdakı kimi təsvir etmək olar ***(Şəkil 1):***




**Şəkil 1. Əhali istehlakının formalaşmasının başlıca amilləri**

*Mənbə: Müəllif tərəfindən tərtib olunub*

Azərbaycan Respublikasında ölkə iqtisadiyyatının artım tempi, əsas makroiqtisadi göstəricilərin dəyişmə dinamikası əhali və istehsal xarakterli istehlakın tədqiqi üçün statistik bazadır. Ölkədə iqtisadi inkişaf dinamikası Ümumi Daxili Məhsulun artımı, istehlak üçün zəruri olan əmtəə və xidmət dövriyyəsinin həcmi, əhali gəlirləri və real istehlak səviyyəsi real iqtisadiyyatın istehlak yönümlü olmasını göstərir. Belə ki, həyat səviyyəsinin inkişaf göstəriciləri, əhali gəlirləri və istehlakı arasında tarazlı inkişaf dinamikası formalaşan iqtisadi siyasətin istehlak tələbi baxımından qiymətləndirilməsini sübut edir ***(Cədvəl 1)***.

**Cədvəl 1.**

**Əhali istehlakına təsir edən amillərin dinamikası**

| | 2010 | 2015 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Əhalinin sayı, min nəfər | 8997,6 | 9593 | 9974,0 | 10026,1 | 10063,3 |
| İqtisadiyyatla məşğul olanların orta illik sayı, min nəfər | 4329,1 | 4671,6 | 4721,2 | 4831,1 | 4901,1 |
| Əhalinin nominal pul gəlirləri, milyon manat | 25607 | 41744,8 | 55754,1 | 57206,8 | 68914,6 |
| Əhalinin ümumi xərcləri, milyon manat | 19251,5 | 34963,4 | 49826,4 | 55379,1 | 65764,4 |
| Əhalinin faktiki son istehlak xərcləri, milyon manat | 16528,5 | 30595,3 | 43899,5 | 48507,3 | 57700,6 |
| Ümumi daxili məhsul, milyon manat | 42465,0 | 54380 | 72578,1 | 93203,2 | 133825,8 |
| Əhalinin orta aylıq nominal əməkhaqqı, manat | 331,5 | 466,9 | 707,7 | 732,1 | 840,0 |
| İstehlak qiymətləri indeksi, % | 105,7 | 104 | 102,8 | 106,7 | 113,9 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin statistik hesabatları əsasında müəllif tərəfindən tərtib olunub*

Göründüyü kimi Cədvəl 1-də ümumiləşdirilmiş artım templəri və əhalinin istehlakını formalaşdıran əsas iqtisadi və sosial göstəricilərin artımı verilmişdir. Statistik təhlil olaraq Ümumi Daxili Məhsulun artımı və onun investisiya və istehlak xərcləri arasında bölgüsü funksional əhali və istehsal xərclərinin maliyyə mənbələrini formalaşdırır. Bu da öz növbəsində hər bir sahənin daxili potensialını, onun ixracat gücünü və dövlət büdcəsi və yerli büdcələrin hüquqi və fiziki şəxslərin maliyyə-maddi potensialının formalaşmasında rolunu artırır.

Dissertasiya işinin **“Azərbaycanda əhalinin istehlakının inkişafının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**” adlı II fəslində  Azərbaycanın regionlarında əhali istehlakının müasir vəziyyətinin təhlili, əhalinin istehlakının inkişafının qiymətləndirilməsi və  ölkəmizdə istehlak bazarının formalaşmasının ərzaq təhlükəsizliyinin təmin edilməsinin mühüm amili kimi məsələlər tədqiq olunmuşdur.

Azərbaycanda region əhalisinin istehlakının strukturunda ərzaq istehlakı xüsusi əhəmiyyət kəsb edir və tədqiqat obyektlərindən biri hesab olunur. Məlumdur ki, ölkədə aqrar sektorun əsas istehsal amillərindən biri olan əmək resurslarının əhəmiyyətli hissəsi məhz region əhalisinin fəaliyyəti hesabına təmin edilir.      Tədqiqat göstərir ki, Azərbaycanda istehlak bazarının əhalinin hər nəfərinə düşən dəyəri 6245 manat olmuşdur. Bakı şəhərində 14617 manat, Naxçıvan M.R.-da 4463 manat, Gəncə-Daşkəsən iqtisadi rayonunda isə 4144 manat adambaşına istehlak bazarı həcmi təşkil edir ***(Qrafik 1).***




**Qrafik 1. 2022-ci ildə iqtisadi rayonlarda əhalinin hər nəfərinə düşən istehlak bazarının dəyəri, manat**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib*

Azərbaycanda regionların sosial-iqtisadi statusu və regional əhalinin istehlakının müasir vəziyyətinin təhlili nəticələrinə əsasən, ümumilikdə Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və Abşeron-Xızı iqtisadi rayonları üzrə sosial-iqtisadi göstəricilər, o cümlədən məşğul əhalinin və muzdlu işçilərin sayı, əmək haqqı səviyyəsi, adambaşına illik gəliri və həmçinin istehlak bazarının həcminə görə reytinq sıralamasında ilk yerlərdə qərarlaşsalarda, aqraryönümlü

göstəricilərdə, aqrar məhsul buraxılışı, aqrar sahədə məşğulluq və bu kimi digər göstəricilərdə Qazax-Tovuz, Quba-Xaçmaz və Lənkəran-Astara və qismən Qarabağ iqtisadi rayonları öncüllük edirlər.

Azərbaycanda kənd təsərrüfatı sahəsində son illər yeni inkişaf trendləri müşahidə olunur. Ölkəmizdə 2011-2021-ci illər ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8% (o cümlədən bitkiçilik məhsulları istehsalı 53,0%, heyvandarlıq məhsulları istehsalı 42,5%), balıqçılıq məhsulları istehsalı isə 3,6% artıb. Kənd təsərrüfatı, meşə və balıqçılıq sahələrində yaradılan əlavə dəyərin ÜDM-də payı 2011-ci ildə 5,1%, 2021-ci ildə 5,9% olub.

Ümumiyyətlə, 2021-ci ildə ölkədə 9,2 milyard manat məbləğində kənd təsərrüfatı məhsulu istehsal edilib ki, onun da 50,8-%i heyvandarlıq, 49,2%-i bitkiçilik sahəsinə düşmüşdür. İstehsal edilmiş kənd təsərrüfatı məhsulunun 90%-dən çox hissəsi məhz fərdi sahibkarlar, ailə-fermer və ev təsərrüfatlarının payına düşür. Bu il ərzində aqrar sektorda yaradılmış əlavə dəyərin yəni aqrar ÜDM-nin həcmi 5,5 milyard manat olmuşdur (***Qrafik 2.***).




**Qrafik 2. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və bu sahədə yaradılmış əlavə dəyərin həcminin müqayisəli göstəriciləri, milyon manat**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib*

Ölkədə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi kimi, ölkə üzrə ət və ət məhsulları, süd və süd məhsulları, şəkər, balıq və balıq məhsulları istisna olmaqla, digər məhsullarda həm dinamik, həm də nisbi göstəricilərdə artım müşahidə olunur.

Bazar münasibətləri şəraitində ölkə əhalisinin istehlak məhsulları ilə etibarlı təminat sisteminin yaradılması yüksək təminatlı istehlak bazarının yaradılmasını və bu bazarın tənzimlənməsinin vacibliyini zəruri edir. İstehlak bazarını kifayət qədər istehlak məhsulları ilə təmin etmədən əhalinin istehlak məhsulları ilə təminatından danışmaq mümkün deyildir.

Aparılan tədqiqatlar onu deməyə imkan verir ki, ölkənin ərzaq təhlükəsizliliyinin təmin edilməsində və aqrar-ərzaq bazarının tənzimlənməsində əsas vəzifələrdən biri də ərzaq bazarının iştirakçıları olan istehlakçıların və kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarının qorunmasıdır. Bazar münasibətləri şəraitində ərzaq təhlükəsizliliyinin təminatında əsas rol oynayan aqrar-ərzaq bazarının fəaliyyət mexanizmində kənd təsərrüfatı məhsulları istehsalçılarının mənafeləri o zaman müdafiə edilir ki, onların fəaliyyəti istehsalçıların maraqları ilə ziddiyyət yaratmasın. Beləliklə, deyilənləri ümumiləşdirərək belə bir fikirə gəlmək olar ki, Respublikanın ərzaq təhlükəsizliliyinin təmin olunmasında və aqrar-ərzaq bazarının tənzimlənməsində ərzaqla özünütəminetmə səviyyəsinin artırılması, ərzaq təhlükəsizliliyinin səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən işçilərin gəlirləri ilə milli iqtisadiyyatın başqa sahələrində çalışan işçilərin gəlirləri arasında bərabərsizliliyinin ortadan götürülməsi və s. əsas məqsədlərdəndir

Ölkə üzrə ərzaq təhlükəsizliliyi səviyyəsi problemini araşdırarkən əsas ərzaq məhsullarının daxili istehsalının həcmi, quruluşu və bu məhsulların istehlakı ilə əhalinin əsas ərzaq məhsullarına tələbatı səviyyəsinin müqayisə edilməsi məqsədəuyğundur.

Statistik və hesablanmış məlumatlar onu göstərir ki, son illərdə əsas ərzaq məhsulları üzrə istehlakın kifayətlilik əmsalı 2013-cü il səviyyəsi ilə müqayisədə kərə yağı, balıq və balıq məhsulları istisna olmaqla bütün digər məhsullar üzrə artımışdır və ərzaqla təminetmə prosesi kərə yağı üzrə adambaşına illik istehlak istisna olunmaqla tibbi normalara uyğun olmuşdur ***(Cədvəl 2).*** 2013-2022-ci illər ərzində əhalinin istehlak xərcləri onun gəlirlərini qabaqlamışdır. Belə ki, 2013-cü ildə istehlak xərcləri əhalinin gəlirlərini 2,1% qabaqladığı halda 2018-ci ildə bu rəqəm 3,6 %, 2019-cu ildə 2,0%, 2020-ci ildə 2,2%, 2022-ci ildə isə 1.7% olmuşdur.

**Cədvəl 2. 2015-2022-ci illərdə əsas növ ərzaq məhsulları üzrə istehlakın kifayətlilik əmsalı**

| № | Ad | 2013 | 2017 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bütün növ ət və ətməhsulları | 106,0 | 118,7 | 129,5 | 129,5 | 130.8 | 133.6 |
| 2. | Süd və süd məhsulları | 106,1 | 102,4 | 106,0 | 110,9 | 109.0 | 111.6 |
| 3. | Yumurta (ədəd) | 100,0 | 103,3 | 107,8 | 114,4 | 111.1 | 117.0 |
| 4. | Qənd və qənd məhsulları | 149,7 | 151,1 | 151,1 | 154,6 | 156.9 | 156.9 |
| 5. | Bitki yağları | 110,2 | 163,3 | 164,3 | 156,1 | 95.9 | 85.7 |
| 6. | Balıq və balıq məhsulları | 93,5 | 102,6 | 98,7 | 94,8 | 96.1 | 98.7 |
| 7. | Kərə yağı | 70,1 | 50,7 | 49,2 | 46,7 | 56.7 | 41.2 |
| 8. | Çörək və çörək məhsulları | 98,8 | 98,6 | 99,6 | 101,8 | 100.0 | 97.1 |
| 9. | Kartof | 143,3 | 148,6 | 162,4 | 164,6 | 166.4 | 180.4 |
| 10. | Bütün növ tərəvəz | 111,3 | 107,3 | 131,6 | 138,4 | 142.6 | 143.8 |
| 11. | Meyvə və giləmeyvə | 145,4 | 154,8 | 174,8 | 190,4 | 181.9 | 173.7 |

*Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri 2015-2023*

Cədvəl 2-nin məlumatları əsasında əhalinin gəlirlərinin quruluşunda kənd təsərrüfatından və özünü məşğulluqdan gələn gəlirlərin 2013-2020-ci illər ərzində azaldığını, məşğuluqdan gələn gəlirlərin isə bu müddət ərzində artdığını görə bilərik. Belə ki, kənd təsərrüfatından gələn gəlirlər 2013-cü ildə gəlirlərin quruluşunda 13,9% olduğu halda 2022-ci ildə bu rəqəm 10,7%, özünü məşğulluqdan gələn gəlirlər 2013-cü ildə 25,7% olduğu halda 2022-ci ildə 32,9% təşkil etmişdir. İstehlak xərclərinin quruluşunda əsas ərzaq məhsullarına olan xərclərin 2013-2022-ci illər ərzində artdığını görə bilərik. Ərzaq məhsulları üzrə istehlak xərclər 2013-cü ildə 92,9 manat olmaqla 42,0% təşkil etdiyi halda, 2020-ci ildə 130,8 manata çataraq 43,4%, 2022-ci ildə isə 147,0 manat olmaqla 44.1% təşkil etmişdir. 2013-2022-ci illər ərzində əhalinin ərzaq məhsullarına olan xərcləri 55,2 manat, yaxud 60,1% artdığı halda istehlak xərcləri bütovlükdə 112,0 manat, yaxud 50,6% artmışdır. Beləliklə, əhalinin ərzaq xərclərinin artım tempi istehlak xərclərinin artım tempini qabaqlamışdır. Cədvəlin məlumatları əsasında deyə bilərik ki, əhalinin 2013-2022-ci illərdə gəlirləri 112,9 manat, yaxud 52,6% artmış və bu dövr ərzində əhalinin ərzaq məhsullarına olan xərcləri isə 55,2 manat, yaxud 60,1% artmaqla gəlir artımını qabaqlamışdır. Ərzaq məhsulları üzrə istehlak xərclərin artımı əhalinin bu müddət ərzində gəlirlərinin artımının 47,9%-ni təşkil etmişdir. Bunun da əsas səbəbi bu müddət ərzində əhalinin adambasına ərzaq məhsulları istehlakının artması və ərzaq məhsullarının qiymətinin yüksəlməsidir.

Cədvəlin məlumatları əsasında bu müddət ərzində yaranan dinamika onu deməyə əsas verir ki, əvvəldə olduğu kimi əsas ərzaq məhsulları qiymətinin artım tempinin əhalinin gəlirlərinin artımını üstələmişdir, bu da öz növbəsində əhalinin əldə etdiyi gəlirlərin daha çox hissəsinin ərzaq məhsullarına xərcləməsinə səbəb olur və nəticədə əhalinin istehlakı üçün vacib olan digər istehlak tələbatlarına ödəməli olduğu məsrəfləri azalır ki, bu da əhalinin vacib olan başqa istehlak tələbatlarının ödənilməsində çətinliklər yaradır. Belə bir hal bütovlükdə sosial vəziyyətə neqatif təsir edir.

Son dövrlərdə kənd təsərrüfatı məhsulları istehsalının müsbət dinamikası ölkənin bir sıra məhsul növləri - taxıl, kartof, bitki yağı və şəkər üzrə ərzaq müstəqilliyi səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur ***(Cədvəl 3).***

**Cədvəl 3. Yerli kənd təsərrüfatı məhsulları, xammal və kənd təsərrüfatı məhsullarının onların resurslarının ümumi həcmində xüsusi çəkisi (məhsul növləri üzrə), %**

| № | Məhsulun adı | Ərzaq təhlükəsizliyi doktrinasının hüdud həddi. % | 2015 | 2021 | 2022 | 2022-ci il hüdud həddinə +;- |
|---|---|---|---|---|---|---|
| 1. | Buğda | 95 | 54,8 | 61.5 | 56.7 | -38.3 |
| 2. | Kartof | 95 | 89,1 | 88.8 | 89.0 | -6.0 |
| 3. | Tərəvəz (bütün növ) | 85 | 103,4 | 106.6 | 106.8 | +21.8 |
| 4. | Meyvə və giləmeyvə | 85 | 113,7 | 122.9 | 123.9 | +38.9 |
| 5. | Süd və süd məhsulları | 90 | 84,3 | 84.8 | 83.3 | -6.7 |
| 6. | Yumurta | 85 | 99,7 | 99.1 | 100.3 | +15.3 |
| 7. | Un (bütün növləri) | 95 | 95,1 | 95.0 | 93.3 | -1.7 |
| 8. | Şəkər | 80 | 192,9 | 100.7 | 103.9 | +23.9 |
| 9. | Şəkərli qənnadı məmulatları | 80 | 17,8 | 34.2 | 30.6 | -49.4 |
| 10. | Mal əti və ət məhsulları | 85 | 91,8 | 91.9 | 93.0 | +8.0 |
| 11. | Qoyun və keçi əti, ət məhs. | 85 | 99,3 | 98.2 | 97.0 | +12.0 |
| 12. | Quş əti və ət məhsulları | 85 | 98,6 | 79.6 | 78.3 | -6.7 |
| 13. | Balıq və balıq məhsulları | 80 | 77,6 | 78.2 | 76.7 | -3.3 |
| 14. | Kərə yağı | 80 | 69,2 | 66.7 | 62.0 | -18.0 |
| 15. | Bitki yağı | 80 | 60,5 | 73.2 | 66.7 | -13.3 |
| 16. | Marqarin | 80 | 292,2 | 99.6 | 99.3 | +19.3 |
| 17. | Makaron məmulatları | 95 | 53,2 | 47.2 | 64.3 | -30.7 |
| 18. | Çay | 80 | 40,2 | 89.5 | 91.1 | +11.1 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri 2023*

Aqrar-ərzaq məhsulları üzrə istehlak bazarında nisbətən dayanıqlı vəziyyət saxlanmışdır ki, bu da əhalinin ödəməqabiliyyəti tələbi ilə təmin edilmişdir və bu sabitlik əsasən kənd təsərrüfatı məhsulları istehlakının demək olar ki, üçdə birini təşkil edən aqrar məhsulları, xammal və ərzaq məhsullarının idxal tədarükləri hesabına təmin edilmişdir.

Əhalinin istehlakının strukturunda yerli məhsulların xüsusi çəkisi artmamış, son 6 ildə hətta 67,0 faizdən 66,0 faizə enmişdir. Ərzaq məhsulları və kənd təsərrüfatı xammalının idxalının həcmi 2,7 mlrd. dollar təşkil edib və bütün əvvəlki illərlə müqayisədə ən yüksək olub.

Aparılan hesablamalardan göründüyü kimi ölkəmizdə ərzaq təminatının artırılması sahəsində yuxarıda qeyd etdiyimiz dövlət proqramlarını əhatə edən tədbirlərin yerinə yetirilməsi sayəsində 2022-ci ildə əsas növ ərzaq məhsullarına olan tələbatın ödənilmə səviyyəsi ət və ət məhsulları üzrə 128,3%, süd və süd məhsulları üzrə 109,8%, yumurta üzrə 113,2%, qənd və qənd məhsulları üzrə 152,9%, bitki yağı üzrə 155,1%, balıq və balıq məhsulları üzrə 94,8%, kərə yağı üzrə 53,7%, kartof üzrə 163,0%, bütün növ tərəvəz üzrə 137,2%, meyvə və giləmeyvə üzrə 188,7% təşkil etmişdir. Bütün görülən bu tədbirlərə baxmayaraq respublikamızda əsas növ ərzaq məhsulları idxalının yerli kənd təsərrüfatı məhsulları hesabına əvəz edilməsi hələ ki, kifayət qədər təmin edilməmişdir.

**Cədvəl 4**

**Ölkə əhalisinin ərzaq məhsulları üzrə illik istehlak xərcləri**

| İllər | Ölkə əhalisi. min nəfər | Ərzaq məhsullarına aylıq istehlak xərcləri, adambaşına, man | Ölkə əhalisinin ərzaq məhsullarına, aylıq istehlak xərcləri, min man | Ölkə əhalisinin ərzaq məhsullarına, illik istehlak xərcləri, mln man |
|---|---|---|---|---|
| 2001 | 8114,3 | 21,7 | 176080,3 | 2113,0 |
| 2005 | 8447,4 | 35,7 | 301572,2 | 3618,9 |
| 2008 | 8779,9 | 65,2 | 572449,5 | 6869,4 |
| 2011 | 9111,1 | 82,4 | 750754,6 | 9009,1 |
| 2013 | 9356,5 | 91,8 | 858926,7 | 10307,1 |
| 2014 | 9477,1 | 95,6 | 906010,8 | 10872,1 |
| 2015 | 9593,0 | 99,4 | 953544,2 | 11442,5 |
| 2020 | 9898,1 | 119,7 | 118480,6 | 14217,6 |
| 2021 | 9981,3 | 123,8 | 1235684,9 | 14828,2 |
| 2022 | 10067,1 | 129,2 | 1300669,3 | 15608,0 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri 2023*

Cədvəl 4-ün məlumatlarında göründüyü kimi, 2001-2022-ci illər ərzində həm ölkə əhalisinin sayında, həm də əhalinin adambaşına əsas ərzaq məhsullarına istehlak xərclərində artım vardır. Belə ki, 2022-ci ildə əhalinin atımı 2001-ci ilə nisbətən 24,0% , 2013-cü ilə nibətən 7,6%, 2015-ci ilə nisbətən 4,9% ardığı halda müvafiq dövr ərzində əhalinin adambaşına ərzaq məhsullarına istehlak xərcləri 2001-ci ilə nisbətdə 5,9 dəfə, 2013-cü ilə nisbətdə 40,7%, 2015-ci ilə nisbətdə 30,0 % təşkil edərək əhalinin sayinin artım tempini qabaqlamışdır. Cədvəl 4-ün məlumatları əhalinin ərzaq məhsullarına olan istehlak xərclərinin ilbəil artım dinamikasının olduğunu göstərmişdır ki, bu artımın da əsas səbəbi əhalinin gəlirlərinin və gəlirlərdə istehlak xərclərinin xüsusi çəkisinin artması, eyni zamanda ərzaq məhsullarına olan qiymətlərin yüksəlməsi olmuşdur. Cədvəl 4-də müəyyən edilmiş məlumatlardan istifadə edərək ölkə üzrə 2001-2022-ci illər üzrə ərzaq təhlükəsizliliyinin ümumi səviyyəsini hesablayaq.

Aparılan hesablamalardan görünür ki, ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsində son illərdə azalma müşahidə edilir. Belə ki, ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsi 2001-ci ildə 92,6%, 2005-ci ildə 99,3%, 2008-ci ildə 96,2%, 2011-ci ildə 102,2%, 2013-cü ildə 101,2%, 2014-cü ildə 100,6%, 2015-ci ildə 100,5%, 2018-ci ildə 95,6%, 2021-cu ildə 93,3% və 2022-ci ildə isə 94,1% olmuşdur.

**Cədvəl 5. 2001-2022-ci illər üzrə Azərbaycan Respublikasının ərzaq təhlükəsizliliyinin ümümi səviyyəsinin dinamikası**

| İllər | Ərzaq və kənd təsərrüfatı məhsulları mln. ABŞ dol | | İxrac və idxalın saldosu | | | Əhalinin ərzaq xərcləri mln. manat | Ərzaq təhlükəsizliliyinin ümumi səviyyəsi % |
|---|---|---|---|---|---|---|---|
| | İxrac | İdxal | Mln ABŞ dol | Dolların orta illik məzənnəsi | Mln. manat | | |
| 2001 | 21,4 | 188,4 | 167,0 | 0,9913 | 155,5 | 2113,0 | 92,6 |
| 2005 | 273,2 | 299,9 | 26,7 | 0,9459 | 25,2 | 3618,9 | 99,3 |
| 2008 | 476,4 | 789,6 | 319,2 | 0,8216 | 257,3 | 6869,4 | 96,2 |
| 2011 | 906,9 | 656,5 | 250,4 | 0,7897 | -197,7 | 9009,1 | 102,2 |
| 2013 | 949,9 | 788,2 | 161,6 | 0,7845 | -126,8 | 10307,1 | 101,2 |
| 2014 | 840,5 | 750,7 | 89,8 | 0,7844 | -70,4 | 10872,1 | 100,6 |
| 2015 | 764,6 | 707,5 | 57,1 | 1,0261 | -58,6 | 11442,5 | 100,5 |
| 2018 | 626,9 | 997,4 | 370,5 | 1,7000 | 629,9 | 14217,6 | 95,6 |
| 2021 | 677,4 | 1257,0 | 579,6 | 1,7000 | 985,3 | 14828,2 | 93,3 |
| 2022 | 689.1 | 1233,7 | 544,6 | 1,7000 | 925,8 | 15608,0 | 94,1 |

*Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri 2022*

Cədvəl 5-in məlumatlardan göründüyü kimi, son illərdə ölkə üzrə ərzaq təhlükəsizliyinin ümümi səviyyəsində 2005-2018-ci illərlə müqayisədə 2022-ci ildə azalma baş vermişdir. Ölkə üzrə ərzaq təhlükəsizliyinin ümümi səviyyəsinin bu illər ərzində aşağı düşməsinin əsas səbəbi əhalinin istehlak xərclərinin tərkibində ərzaq xərclərinin miqdarının və bu müddət ərzində ölkəyə kənd təsərrüfatı və ərzaq məhsulları idxalının həcminin artması olmuşdur. Belə ki, 2022-ci ildə ölkəyə idxal edilən kənd təsərrüfatı və ərzaq məhsullarının həcmi 2005-ci ilə nisbətən 4,1 dəfə, 2013-cü ilə nisbətən 56,5%, 2015-ci ilə nisbətən 74,3%, 2018-ci ilə nisbətən 23,7% artmış və 2019-cu il ilə müqayisədə isə 1,9% azalmışdır.

Hesablanmış məlumatlarından göründüyü kimi, ərzaq asılılığı səviyyəsi bütün növ ət və ət məhsulları üzrə 84,3% olmaqla bu məhsullar üçün müəyyən edilmiş 85%-lik hüdüd səviyyəsindən, süd və məhsulları 84,1% olmaqla müəyyən edilmiş hüdud 90%-lik hüdud səviyyəsindən, qənd və qənd məhsulları 57,2% olmaqla müəyyən edilmiş 80%-lik hüdud səviyyəsindən, bitki yağları 48,7% olmaqla müəyyən edilmiş 80%-lik hüdud səviyyəsindən, kərə yağı 65,5% olmaqla müəyyən edilmiş 80%-lik hüdud səviyyəsindən aşağı olmuşdur ki, bu da həmin məhsullar üzrə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində ərzaq asılılığının olduğunu göstərir. Cədvəl məlumatlarına əsaslanaraq deyə bilərik ki, ərzaq asılılığı səviyyəsi un və un məhsulları üzrə 100,0% olmaqla 90%-lik hüdud səviyyəsindən, kartof üzrə 21,0% olmaqla 95%-lik hüdud səviyyəsindən, bütün tərəvəz üzrə 127,9% olmaqla 90%-lik hüdud səviyyəsindən və meyvə və giləmeyvə üzrə 128,5% olmaqla 90%-lik hüdud səviyyəsindən yuxarı olmuşdur. Bu hal həmin məhsullar üzrə ərzaq asılığının olmadığını göstərir.

Dissertasiya işinin **"Əhali istehlakı bazarının tənzimlənməsinin təkmilləşdirilməsi"** adlı III fəslində əhali istehlakı bazarının tənzimlənməsi və onun əsas istiqamətləri, istehlak bazarında rəqabət mühitinin formalaşması və antiinhisar siyasəti və istehlak bazarında məşğulluğun səmərəli artım yolları tədqiq edilmişdir.

Ərzaq bazarının dövlət tənzimlənməsi insana birbaşa iqtisadi təsir sferası və cəmiyyətdə sosial sabitlik amili hesab edilir. Onun qiymətlər, əmtəə və xidmətlərin kəmiyyəti, keyfiyyəti və hərəkətliliyi

baxımından tarazlığı əhalinin həyat keyfiyyətinin qiymətləndirilməsinin zəruri komponentidir. Əhalinin həyat səviyyəsinin təmin edilməsində xüsusi çəkisinə və roluna görə ərzaq bazarı rayon iqtisadiyyatında aparıcı yer tutur. Başqa sözlə, ərzaq bazarının tənzimlənməsi sisteminin səmərəliliyinin yüksəldilməsi ölkə əhalisinin etibarlı ərzaq təminatının əsas amillərdəndir.

Ərzaq bazarında daxili tələbatın tənzimlənməsi ilk növbədə, yerli istehsalı təmin etmək üçün onun stimullaşdırılmasına yönəldilməlidir. Ölkəmiz üçün ərzaq idxalının tənzimlənməsində əsas məqsəd ərzaq qıtlığının qarşısının alınması üçün qabaqcıl tədbirlərin görülməsi və yarana biləcək qıtlığın aradan qaldırılmasıdır[1].

İqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinə nisbətdə kənd təsərrüfatı məhsulları və onun emalı ilə məşğul olan sənaye müəssisələrində risklərin çox olması səbəbindən kreditləşmə səviyyəsi də təsirlənir. Belə ki, aqrar sahənin kreditə olan ehtiyacları da məhz istehsalın mövsümiliyi və təbii-iqlim şəraitindən asılılığı, investisiyaların daha uzunddətli geri ödəmə qabiliyyəti və digər bu kimi xüsusiyyətlərə görə formalaşır. Bu baxımdan da bu sahənin kreditləşməsinə dövlət dəstəyi özünü güzəştli kreditləşmə formasında büruzə verir. Aqrar sahədə dövlət tənzimləməsi üzrə stimullaşdırıcı təsir göstərən mühüm alətlərindən biri də sahibkarlara və fermerlərə təklif edilən güzəştli kreditlərdir. Belə ki, bu alətlərdən ilk növbədə, xüsusi və ya cəlb olunmuş vəsaitlərə malik olmayan təsərrüfat subyektləri, xüsusilə kiçik fermer təsərrüfatları faydalanırlar. Məlumdur ki, ölkədə aqrar sahəyə güzəştli kreditləşmə xətti əsasən Sahibkarlığın İnkişafı Fondu və Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri ilə kommersiya bankları və bank olmayan kredit təşkilatları tərəfindən həyata keçirilir. Beynəlxalq təcrübədə isə kənd təsərrüfatı kreditlərini təmin edən qurumların tərkibinə banklarla yanaşı, ixtisaslaşmış kredit kooperativləri daxildir və onlar kreditləşmədə mühüm rol oynayır. Bu tip kooperativlər kənd təsərrüfatı istehsalçılarına kredit resurslarına çıxışının asanlaşdırılması, prosedurların sadələşdirilməsi və yaxşılaşdırılmasından, həmçinin yerli əhalidən əmanətlərin cəlb edilməsi ilə bağlı fəaliyyətləri həyata keçirirlər.

[1] Кушлин, В.И. Государственное регулирование экономики / В.И. Кушлин. - Москва.: Экономика, - 2013. - 496 с. Стр. 19

Fikrimizcə, dünyada istifadə edilən bu təcrübə ölkəmizdə də gələcəkdə istifadə edilə bilər və bu fermerlərin kredit ehtiyaclarının ödənilməsi səviyyəsinin yüksəlməsinə xidmət edəcəkdir. Ümumilikdə belə qənaətə gəlmək olar ki, güzəştli kredit alətlərinin əhatə dairəsinin genişləndirilməsi ilə aqrar inkişafa, dolayısı ilə əhalinin istehlak bazarının davamlı inkişafına öz təsirini göstərə bilər.

Milli iqtisadiyyatın, o cümlədən istehlak bazarının tənzimlənməsi tələb, təklif və qiymətlərin tənzimlənməsindən və azad rəqabətin təmin olunmasından keçir. Mövcud bazar iqtisadiyyatı şəraitində əhalinin istehlak bazarının tənzimlənməsi dövlət sifarişləri, vergi, rüsum və digər fiskal alətlərin tətbiqi, investisiyalaşdırma, qiymətlər sistemi, stimullaşdırma, inzibati məhdudlaşdırma və digər metodlar vasitəsilə həyata keçirilir. Bu əsaslarla da əhalinin ərzaq istehlakı bazarının tənzimlənməsi zamanı aşağıdakı istiqamətlərin nəzərə alınması sahənin dinamik inkişafına təkan verər:

- əhalinin məşğulluğunun və gəlirlərinin tənzimlənməsi;
- davamlı sosial siyasətin həyata keçirilməsi;
- xarici iqtisadi münasibətlər və xarici ticarətdə qarşılıqlı güzəştlər sisteminin, yükdaşıma tariflərinin, beynəlxalq sertifikatların, lisenziyaların, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi;
- aqrar istehsalın düzgün təşkili və onların sənaye ilə inteqrasiyasına yönəldilməsi istiqamətində normativ hüquqi bazanın təkmilləşdirilməsi və onların tətbiqi dairəsinin genişləndirilməsi;
- istehlak kooperasiyalarının qurulmasının əhali arasında təşviq edilməsi, institusional və iqtisadi mexanizmlərin qurulması;
- aqrar məhsullar üzrə özünütəminetmə göstəricilərinin yüksəldilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün yerli istehsalçıların təşviq edilməsi, daxili bazarın əlverişsiz kənar təsirlərdən qorunması mexanizmlərinin formalaşdırılması.

**Tədqiqat prosesində Azərbaycanda istehlak bazarında rəqabət mühitinin və antiinhisar fəaliyyətinin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir.**

Müasir şəraitdə tam olaraq təkmil rəqabət mühitinə malik istehlak bazarı nəzəriyyədə mümkün olsa da, təcrübədə bunu müşahidə etmək olduqca çətindir. Təkmil rəqabətlə bağlı xüsusiyyətlərin biri və ya bir neçəsinə malik bazar olsa da, hamısının reallaşdığı bazar demək olar ki,

yoxdur. Ən azından müasir dövrdə reklam və nəqliyyat xərcləri, həmçinin istehlakçıların məhsul və bazar haqqında tam, dolğun və həqiqəti əks etdirən informasiya ilə operativ şəkildə təmin olunması tələbinə çox zaman riayət edilmir. Nəticədə, haqsız rəqabətə, bəzənsə inhisarçı rəqabətə şərait yaranmış olur, yəni istehlak bazarında rəqabət tarazlığı pozulur.

Azad rəqabət bazar subyektləri arasında davam edən qarşılıqlı əlaqə və təsirləri əhatə edir. Rəqabətin formalaşması və təkamülü mülkiyyət ayrı-seçkiliyi və əmək bölgüsü ilə idarə olunan əmtəə istehsalı ilə eyni vaxtda başlamışdır. Belə ki, müasir dövrdə əhalinin tələbatlarının yüksəlməsi müqabilində əmtəə istehsalı genişləndikcə rəqabət iqtisadi inkişafın ən fəal komponentinə çevrilir. Bazar iştirakçıları arasında rəqabət davam edən iqtisadi mübarizənin bir formasıdır. Bu iqtisadi mübarizənin əsas səbəbləri əmtəə və xidmətlərin istehsalı və ticarəti üçün daha əlverişli şərtlərin əldə edilməsidir. Başqa sözlə, hər bir bazar iştirakçısı daha çox istehlakçını özünə cəlb etmək və ticarətdən yüksək gəlir əldə etməklə rəqabət mübarizəsindən qalib ayrılmağa çalışır Antiinhisar siyasət sahəsində institusional mexanizmin formalaşdırılması istiqamətində son illər irəliləyişlər olsa da, siyasətin tətbiqi mexanizmində bəzi ləngimələr və işlək olmaması ilə bağlı problemlər ortaya çıxır. Bu da, fikrimizcə, bir neçə amillərdən irəli gəlir. Bunlardan əsas olanı isə uzun zamandır bir çox tədqiqatçı alim və mütəxəssislər tərəfindən dəfələrlə qeyd edilən rəqabət sahəsində sistemli qanunvericiliyin, yəni Rəqabət Məcəlləsinin uzunmüddət ərzində işlənib hazırlanmaması və qəbuledilməməsi olmuşdur. Aparılan araşdırmalar onu göstərir ki, həqiqətən bir çox Avropa İttifaqı ölkəsində, inkişaf etmiş başqa ölkələrdə bu sahədə müsbət təcrübələr var.[2] Bizim ölkədə də, hazırda Rəqabət Məcəlləsi qəbul edilmişdir. Fikrimizcə, onun antiinhisar siyasətinin uğurla həyata keçirilməsinə təkan verəcəkdir.

Xüsusilə qeyd etmək lazımdır ki, hazırda istehlak bazarında rəqabət mühitinin formalaşması nəticəsində:

1. Müəssisələr bazarda bir-biri ilə rəqabət aparmaqla daha rəqabətli, innovativ məhsul və xidmətlə təklif edirlər, istehlak bazarında yaradılan azad rəqabət mühiti cəmiyyətin rifahını yaxşılaşdırır;

2. Bu bazar durmadan inkişaf edir və istehlakçılar çoxçeşidli əmtəə və xidmətlərdən və münasib qiymətlərdən faydalanırlar.

3. Rəqabət mühiti daha çox məhsul və xidmətlərin sayına, malların daha keyfiyyətli olması ilə nəticələnir .

4. Rəqabət siyasəti bazarda ədalətli şərtləri təşviq edir və beləliklə, biznesin uğuru ləyaqətə əsaslanır. Şirkətlər gəlirlərini maksimallaşdırmaq naminə daha rəqabətli və möhkəm olurlar.

5. Rəqabət təşəbbüs azadlığını, hər kəsin yeni biznes yaratmaq və bazara daxil olmaq hüququnu təşviq edir. Nəticədə rəqabət yeni şirkətlərin yaranmasına kömək edir.

Əhali istehlakı ilə birbaşa əlaqədə olan aqrar sektorun inkişaf etməsi üçün biznes mühitinin yaxşılaşdırılması nəticəsində dövlətin iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri yüksək keyfiyyətli, ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalıdır. Hazırda ölkəmizdə bu sahədə aparılmaqda olan dövlət siyasəti kənd təsərrüfatı sahəsində əlverişli biznes mühitinin, habelə dövlət dəstəyinin və sahibkarlarla dövlət arasında əlaqələrin yaxşılaşdırılması məqsədlərinə xidmət edir[2].

İstehlak bazarı mallarının rəqabətqabiliyyətinin artırılması üçün bununla bağlı məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, azad rəqabəti təşviq edən əlverişli mühitin yaradılması zəruridir. Bunun üçün ölkənin resurslarından səmərəli və məqsədyönlü şəkildə istifadə edilməli və bununla bağlı mexanizmlər təkmilləşdirilməlidir.

Azərbaycan əlverişli təbii-iqlim şəraitinə  və iqtisadi potensialına malik ölkə olaraq məhsulların keyfiyyətini istehlakçıların zövqünə və beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırmaq eləcə də, aqrar məhsulların daxili və xarici bazarlarda rəqabət qabiliyyətini yüksəltmək üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin icra edilməsi məqsədə müvafiqdir:

1. Daxili və xarici bazarlarda rəqabətqabiliyyətli məhsul istehsal edə biləcək potensiala malik emal müəssisələrinin qurulması üçün güzəştli kredit, vergi və gömrük güzəştləri kimi təşviq mexanizmlərinin hazırlanması;

2. Təbii resurslardan səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının kəmiyyət və keyfiyyət baxımından istehsal tempini yüksəltmək, ailə-kəndli təsərrüfatlarına dövlət dəstəyinin təkmilləşdirilməsi;

---

[2] Qafarov, N.C. Regionların inkişafında istehsal-iqtisadi əlaqələrin rolu // Beynəlxalq elmi-praktik konfransın materialları. - Bakı: 22 noyabr 2014, - s. 241-247. Səh 242

3. Daxili bazarlarda kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə dərəcəsinin yüksəldilməsi kəndli təsərrüfatlarının və femerlərin bazarlara çıxış imkanlarının artırılması;

4. Aqrar məhsullar üzrə ixrac coğrafiyasının genişlənməsi və müvafiq ixrac həcminin yüksəldilməsini təmin etmək üçün kənd təsərrüfatı və emal məhsullarının keyfiyyətinin artırılması istiqamətində düşünülmüş və sistemli tədbirlərin hazırlanması;

5. Daxili istehsalın artırılması istiqamətində yerli istehsal üçün lazım olan avadanlıqların idxalı zamanı gömrük güzəştlərinin verilməsi.

Bazarda rəqabət qaydalarının pozulması istehlakçılara, şirkətinlərin rəqabət qabiliyyətinə və bütövlükdə iqtisadiyyata zərər vurur. Buna görə də hər kəsin azad rəqabəti formalaşdıran, dövlət tərəfindən müəyyən edilmiş şərtlərə riayət etməsi əsasdır. Qeyd edək ki, hazırda ölkəmizdə istehlak bazarı mallarının rəqabətqabiliyyətinin artırılması üçün məqsədyönlü dövlət siyasətin həyata keçirilir və müsbət nəticələr əldə edilir.

**Tədqiqat nəticəsində ölkə üzrə istehlak bazarında məşğulluğun artırılmasının əsas istiqamətləri müəyyən edilmişdir.**

Davamlı, inklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün tam və məhsuldar məşğulluğu və layiqli işi təşviq etmək Dayanıqlı İnkişaf Məqsədlərindən biri olmaqla, həm də hər bir dövlətin sosial və məşğulluq siyasətində prioritet seçdiyi məsələləri əhatə edir. Məşğulluq məsələləri həmişə diqqət mərkəzindədir və ya məşğulluğun vacibliyini dərk etdiyi üçün ölkəmizdə dövlət səviyyəsində qəbul edilmiş bir sıra sənədlər onun əsas komponentlərindən biri hesab edilir.

Məşğulluq bazar iqtisadiyyatında əhalinin əsas gəlir mənbələrini formalaşdırır. Bundan əlavə, məşğulluq əhalinin həyat səviyyəsinə və dolayı yolla əhalinin siyasi mövqeyini formalaşdıraraq onlara təsir göstərir. Məşğulluqdan əldə edilən gəlirlər, yəni əmək haqqı insanların vergi ödəmə qabiliyyətini də artırır. Bu da ölkənin iqtisadi inkişafının əsas göstəricilərindən birini təşkil edir. Bu baxımdan dövlətlər məşğulluğun təmin edilməsi üçün hər növ dəstək vasitələrindən istifadə etməlidirlər.

Əhalinin istehlak bazarında məşğulluğun sayı ilə yanaşı, əhalinin iqtisadi fəaliyyət növləri üzrə aldığı orta aylıq əmək haqqının məbləği də xüsusi əhəmiyyət kəsb edən məsələdir. Belə ki, bu göstərici əhalinin rifah səviyyəsi və dayanıqlı inkişafla bilavasitə əlaqələndirilir. Aşağıdakı şəkildə istehlak bazarının inkişafı yolu ilə əhalinin rifahının

formalaşmasını təsvir edən sxem göstərilir ***(Şəkil 2)***:




**Şəkil 2. Əhalinin rifahının istehlak bazarı hesabına formalaşması sxemi**

*Mənbə: Беляевский И.К. Потребительский рынок как важнейший фактор благосостояния*

Bu sxemdən göründüyü kimi, əmək haqqı əhalinin pul gəlirlərinin formalaşmasında mühüm rol oynadığı kimi, istehlak bazarının dövriyyəsində də əhəmiyyətli hesab edilir.

Azərbaycanda bir çox kənd yerləri və rayonlarda iş imkanlarının məqbul səviyyəsədə olmaması və iş yerlərinin az olması səbəbindən burada əmək qabiliyyətli yaşda işsizlərin sayı kifayət qədər yüksəkdir. Məlum olduğu kimi kənd təsərrüfatı sahəsi regionlarda məşğulluğun əsas sahəsidir. Beynəlxalq təcrübə və araşdırmalar göstərir ki, kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyət yalnız kollektiv və ya kooperasiyalaşan təsərrüfatlar, birgə fermer tərəfdaşlığı formasında təşkili zamanı əldə edilə bilər. Hər bir kəndlinin aqronomluq, idarəetmə və ya iqtisadiyyat qabiliyyətinə sahib olmadığını nəzərə alsaq, təkbaşına səmərəli bir iş qura bilməyən, qazanc əldə etməyən və istifadə edə biləcəyi başqa bir bacarıq və ya peşəyə sahib olmayan bir kəndli bəzən qazanc üçün şəhərlərə və bəzənsə digər ölkələrə miqrasiya etməyə məcbur qalırlar. Bununla əlaqədar olaraq kənd əhalisinin, həmçinin kənd təsərrüfatı sahəsi üzrə məşğul olan əhalinin sayı azalır və kənd təsərrüfatına yararlı torpaq sahələri istifadə edilmir. Nəticədə isə ölkə kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə qabiliyyətinə malik olduğu halda ölkəyə bir sıra naməlum mənşəli məhsullar idxal edilir, cəmiyyət üçün iqtisadi və qida keyfiyyəti ilə bağlı sağlamlıq problemləri yaranır.

Fikrimizcə, regionların əhalisi daimi yaşayış yerlərində qalsalar, yaxınlıqda iş tapsalar və regionların inkişafında fəal iştirak etsələr, bütövlükdə milli iqtisadiyyatın inkişafı üçün daha faydalı olacaqdır. Bu, ölkəmizdə yerli istehsalın, ümumi daxili məhsulun artmasına və idxalın tədricən azalmasına səbəb olacaqdır.

Aparılan araşdırmalar zamanaı aşkarlanmış problemlərin təhlili və nəticələrini ümumiləşdirərək ölkənin istehlak bazarında məşğulluğun səmərəliliyinin artırılması istiqamətlərini aşağıdakı formada sadalamaq mümkündür:

- fermerlərin bazarlarla əlaqələndirilməsi və onlara effektiv informasiya və məsləhət xidmətlərinin göstərilməsi;
- dövlətin dəstəyi ilə regionlarda alternativ məşğulluq sahələrinin və iş yerlərinin yaradılması;
- regionlarda dayanıqlılığının artırılması məqsədilə "klasterləşmə" prinsipi əsasında aqrar-sənaye istehsalı sahələrinin bərpa olunması;
- regionlarda və xüsusilə postkonflikt zonalarında kənd təsərrüfatı kooperativlərinin yaradılmasına dair təşviqedici alətlərin subsidiya siyasətində nəzərə alınması ilə ölkə üzrə mövcud aqrar subsidiya mexanizminin təkmilləşdirilməsi;
- işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən istehsal sahələrinin, o cümlədən kənd təsərrüfatı istehsalının iqtisadi cəhətdən regiona yaxın olan ərazilərdəki sənaye müəssisələrinə inteqrasiyasının təmin edilməsi;
- regionlarda kənd təsərrüfatı məhsulları istehsalçılarının mövsümdənkənar dövrdə alternativ iş yerləri ilə təmin edilməsi.

# NƏTİCƏ

Əhalinin istehlakının nəzəri və praktiki təhlilini əhatə edən tədqiqat işində əldə edilmiş elmi nəticələr aşağıdakı bəndlərdə sadalanmışdır:

- Əhali istehlakının təhlili məsələlərinə öz elmi əsərlərində diqqət yetirmiş iqtisadçı alimlər, iqtisad məktəblərinin nümayəndələri və beynəlxalq təşkilatlar əhali istehlakına fərqli aspektlərdən yanaşmışdır. Belə ki, tədqiqatçıların bir qismi əhali istehlakını ərzaq təhlükəsizliyi ilə qarşılıqlı əlaqədə, bir qismi maddi-mənəvi ehtiyaclarının ödənilməsi, xarici ticarət nəzəriyyəsi, dünya ərzaq problemi məsələləri, faydalılığın məqsəd funksiyası, məcmu tələblə məcmu təklifin balanslaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluq səviyyəsi ilə əlaqəsi baxımından araşdırmışdır.
- Aparılmış araşdırmalar onu göstərmişdir ki, bütün ölkələrdə ərzaq məhsullarının, o cümlədən kənd təsərrüfatı məhsullarının və istehsal vasitələrinin qiymətlərinin artmasına pandemiya, həmçinin iqlim dəyişiklikləri, iqtisadi və hərbi-siyasi amillər, qlobal bazarda baş verən qeyri-müəyyənliklər təsir edir. Bir sıra ölkələrdə əhali istehlakının formalaşma xüsusiyyətləri eyni və ya oxşar olsa da, istehlakı formalaşdıran amillər kimi istehsal və bölgü münasibətləri, bazar konyunkturası və dövlətin təsir imkanları nəzərdən keçirilir.
- Əhali istehlakının formalaşması və proqnozlaşdırmasının sistem təhlili metodları mövcud dinamikanı və onun strukturunu statistik-müqayisəli təhlil etməklə kompleks qiymətləndirmə və məqsədə nail olmaq yollarının konseptual istiqamətlərini, normativlərini və təsir mexanizmlərini proqnozlaşdırıldığı təqdirdə daha dayanıqlı hesab olunur. Bu zaman əhali istehlakının sistem təhlili onun məcmu tələb və məcmu təklif sistemində xüsusi çəkisi, onun maddi forması və dəyər quruluşu ilə qiymətləndirilir. İstehlakın formalaşmasında amillərin seqmentləşməsi istehlakın xarakterinə görə tərtib olunduqda, iqtisadi-riyazi model olaraq funksional-normativ yanaşma modelləri tərtib olunur.
- Əhali istehlakının idarə edilməsinin amillər üzrə tədqiqi həmin amillərin prioritetliyi ilə müəyyənləşir. Amillərin ərzaq bazarını, qeyri-ərzaq və xidmət sferasına təsiri xüsusi səmərə və multiplikasiya səmərəsi vasitəsi ilə ölçülür. Ona görə də hər bir istehlak növünə və onun dəyişmə həcminə uyğun olaraq spesifik, yaxud aparıcı amillər nəzərdə tutulur.

Daha çox adekvat amil olaraq pul gəlirlərinin differensiyası, onun istehlak ölçüsü ilə əlaqəsi və istehlak normalarına çatmaq üçün gəlirlərin xarakteri və məzmunu ilə əlaqəsi qurulur. İstehlakın proqnozlaşdırılması amilləri olaraq gəlirlərin proqnozu və qiymət inflyasiya səviyyəsinin dəyişməsi meyllərini qiymətləndirməklə baş verir.

- Son 20 il ərzində dünya əhalisi 27% artaraq 2022-ci ildə 7.99 milyard nəfərə çatmış, etibarlı ərzaq məhsulları ilə yetərli səviyyədə təmin olunmayan əhalinin sayı isə 11.2% azalaraq təqribən 735 milyon nəfərə olmuşdur. Buna müvafiq olaraq qida çatışmazlığı problemi yaşayan əhalinin payı da həmin illər ərzində 3.9 faiz bəndi azalmış, 13.1%-dən 9.2%-ə qədər düşmüşdür.

- Gündəlik qida rasionuna daxil olan əsas ərzaq məhsullarına çəkilən xərclər ev təsərrüfatlarının gəlirinin 52%-dən çoxunu təşkil edərsə, ərzaq məhsulları həmin ölkə üçün əlçatmaz sayılır. Dünya Bankının 2021-ci ili əks etdirən hesabatına əsasən, Şimali Amerika, Qərbi Avropa, Rusiya, Avstraliya kimi ölkələrdə əhalinin etibarlı ərzaq məhsullarına çıxışı nisbətən yaxşıdır.

- Qlobal pandemiyanın qarşısının alınması istiqamətində ölkələr tərəfindən tətbiq edilən xüsusi karantin rejiminin tələblərinə müvafiq olaraq turizm, ictimai iaşə və digər obyektlərin fəaliyyətinin dayandırılması səbəbindən əhal istehlakının bu strukturdakı payı həmin illərdə azalsa da, post-pandemiya dövründə yumşalmalar nəticəsində yenidən artım trendi ilə əvəzlənməsi müşahidə edilmişdir. Fikrimizcə, pandemiyanın yaratdığı dolayı sosial-iqtisadi təsirlər səbəbindən də əhalinin həyat səviyyəsinin pisləşməsi, onların çıxış imkanlarının məhdudlaşdırılması, məşğulluq səviyyəsinin azalması, qiymət stabilliyinin qorunmasında yaranan çətinliklər və digər səbəblərdən dolayı etibarlı ərzağa çıxış problemi yaşayan əhalinin sayı artmışdır.

- Müasir dövrdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının inkişafında dəyər zənciri yanaşması üstünlük təşkil edir. Təsadüfi deyil ki, hazırda qlobal səviyyədə kənd təsərrüfatı məhsullarının emalı sənayesində istehsalın artım tempi ilkin kənd təsərrüfatı məhsullarının istehsal tempindən yüksəkdir, buna uyğun olaraq aqro-ərzaq məhsulları üzrə ticarətin artım tempi də istehsalın artım tempini ciddi şəkildə üstələyir və aqro-ərzaq məhsulları üzrə qlobal ticarətdə emal olunmuş məhsulları daha böyük paya malikdir.

- Azərbaycanda istehlak bazarının həcmi son 20 il ərzində təqribən 20 dəfə, son 10 ilə nəzərən isə təqribən 2,6 dəfə artaraq 2021-ci ildə 63,0 milyard manatı ötmüşdür. İstehlak bazarının təqribən 82-83%-ini pərakəndə ticarət, qalan hissəsini isə ictimai iaşə və ödənişli xidmətlər təşkil edir. Ölkədə istehlak bazarının əhalinin hər nəfərinə düşən dəyəri 6245 manat olmuşdur. Burada əhalinin son istehlak xərclərinin ümumi xərclərdəki payı həmin dövrdə 87-91% aralığında dəyişmişdir, bu da ölkəmizdə orta hesabla əhali xərclərinin 89%-nin istehlaka sərf edildiyini deməyə əsas verir.

- ölkədə aqrar siyasət ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin optimal şəkildə yüksəldilməsi ilə yanaşı, kənd yerlərində insanların rifahının yaxşılaşdırılması və ixrac potensialının artırılması hədəflərini kompleks şəkildə əhatə etməklə kənd təsərrüfatının dayanıqlı inkişafı prinsiplərinə əsaslanaraq müəyyən olunmuşdur. Hazırda özünütəminetmə səviyyəsi meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə 100%, ət və süd məhsulları üzrə ümumən 85-86%, balıq və balıq məhsulları üzrə təqribən 80-82%, kartof üzrə təqribən 90%, buğda üzrə təqribən 60% təşkil edir. Son 10 il ərzində kartof, ət və ət məhsulları, pendir və şəkər istisna olmaqla digər kənd təsərrüfatı ərzaq məhsullarında artım dinamikası fonunda inkişaf müşahidə edilir.

- Azərbaycanda regionların sosial-iqtisadi statusu və regional əhalinin istehlakının müasir vəziyyətinin təhlili nəticələrinə əsasən, ümumilikdə Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və Abşeron-Xızı iqtisadi rayonları üzrə sosial-iqtisadi göstəricilər, o cümlədən məşğul əhalinin və muzdlu işçilərin sayı, əmək haqqı səviyyəsi, adambaşına illik gəliri və həmçinin istehlak bazarının həcminə görə reytinq sıralamasında ilk yerlərdə qərarlaşsa da, aqraryönümlü göstəricilərdə, aqrar məhsul buraxılışı, aqrar sahədə məşğulluq və bu kimi digər göstəricilərdə Qazax-Tovuz, Quba-Xaçmaz və Lənkəran-Astara və qismən Qarabağ iqtisadi rayonları öncüllük edirlər.

- Ölkə səviyyəsində təhlil edilən bir çox sosial-iqtisadi göstəricilərin regionlar üzrə sıralaması və müvafiq 10 ballıq qiymətləndirmə ilə ümumi reytinqi müəyyən metodikaya əsaslanaraq hesablanmışdır. Belə ki, bütün sosial-iqtisadi və o cümlədən istehlak göstəriciləri üzrə Qazax-Tovuz, Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi rayonu fərqlənmişlər.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1. Əliyeva V.S. - Əhali istehlakının iqtisadi-riyazi modellər sistmi vasitəsilə proqnozlaşdırılması - Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri s219 – Bakı 2016
2. Əliyeva V.S. - Azərbaycan Respublikasında Əmtəə və Xidmət İsthlakının Marketinq Quruluşu - Milli Aviasiya Akademiyası Gənclərin Yaradıcı Potensialı Aviakosmik Məsələlərin Həllində Beynəlxalq İştirakla II Elmi-Pratiki Gənclər Konfransın Materialları Fevral Məruzələri- s213 – Bakı 2017
3. Əliyeva V.S. - İqtisadi obyektlərin fəaliyyətinin struktur model vasitəsilə qiymətləndirilməsi - AMİU "Azərbaycanda iqtisadi islahatların həyatə keçirilməsinin aktual problemləri" mövzusunda Respublika Elmi-Praktik konfransın materialları – s195 – Bakı 2018
4. Алиева В.С. - Прогнозирование Потребления Населения – Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии НАУЧНЫЙ ЖУРНАЛ– стр 143 – Киров 2018
5. Алиева В.С. - Влияние Экономических Факторов На Потребление Населения Осы Влияния Экономики На Потребление Населения, А Также Изучены - Український Інститут Науково-Технічної Експертизи Та Інформації Наука Технології Інновації– стр 20 – Киев 2019
6. Əliyeva V.S. - Regionlarda əhali istehlakının müasir vəziyyətinin təhlili - Qərbi Kaspi Universiteti Elmi Xəbərlər İctimai və Texniki Elmlər Seriyası– s135 - Bakı 2023
7. Əliyeva V.S. - Antiinhisar iqtisadi siyasətin rəqabət mühitinə və istehlak bazarına təsiri istiqamətləri - Qərbi Kaspi Universiteti Elmi Xəbərlər İctimai və Texniki Elmlər Seriyası– s26 – Bakı 2023
8. Алиева В.С. - Анализ Текущего Состояния Потребления Населения Азербайджанской Республики - Сборник Статей По Материалам LXXIII Международной Научно-Практической

Конференции Вопросы Управления И Экономики: Современное Состояние Актуальных Проблем стр 55 – Москва 2023
9. Aliyeva V.S. - Food Security Of The State: Current State And Prospects For Strengthening - Pahteı Proceedıngs Multıdıscıplınary Journal Volume 49 (06) Issue 02 2025 Cild 49 (06) Buraxılış 02- E-Issn: 2674-5224, Doı: 10.36962/ Bakı 2025



Dissertasiyanın müdafiəsi 25 iyun 2025-ci il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 23 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.05.2025.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (44125 işarə). Tiraj 30.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*